# Kinomuzun Gülbənizi...

**Əməkdar incəsənət xadimi, tanınmış rejissor Gülbəniz Əzimzadə Bakıda ziyalı ailəsində anadan olub. Atası Yusif Əzimzadə yazıçı, anası Gülnaz Salamova isə rəssam idi. Gülbəniz 8-ci sinfi bitirdikdən sonra Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində oxuyub. Lakin kinoya olan sevgisi onu Moskvaya – Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutuna aparıb. Orada rejissorluq sənətinin nəzəri əsaslarına yiyələnib.**



Kino təcrübəsini əyani olaraq "Bizim Cəbiş müəllim" filmində rejissor asistenti kimi qazanmağa başlayan Gülbəniz xanım çəkiliş meydanında görkəmli rejissor Həsən Seyidbəylidən bu sənətin sirlərini öyrənib. Yalnız illər sonra öz kino dünyasını yaratmağa nail olub.

Gülbəniz Əzimzadənin ilk müstəqil ekran işi 1974-cü ildə ekranlaşdırılmış "Nəğmə dərsi" filmi olub. Bu, onun diplom işi idi. Film Rüstəm İbrahimbəyovun eyniadlı hekayəsinin motivləri əsasında çəkilib. Ekran işi boşanmış ailələrdən birinin timsalında anası ilə yaşayan oğulun atası ilə münasibətlərindən bəhs edir. Ata (Əliabbas Qədirov) övladı Fəxrəddini yalnız bir dəfə – dərslərarası tənəffüs zamanı görə bilir və ona öz həyatından, çətinliklərindən danışır. Bununla da övladda ata sevgisi yenidən baş qaldırır. Ata övladına möhkəm olmağı, həyata qaynayıb-qarışmağı tövsiyə edir. Beləcə, Fəxrəddin atasından ilk dəfə həyat dərsi alır…

Quruluşçu rejissor film üzərində işləyərkən operator Valeri Kərimov, quruluşçu rəssam Firəngiz Qurbanova ilə, eləcə də aktyorlarla yaradıcılıq ünsiyyətindən gözəl nəticə əldə edib. Rejissor psixoloji anları maraqlı boyalarla əks etdirə bilib.

Anarın "Dantenin yubileyi" povesti əsasında quruluş verdiyi eyniadlı film 1978-ci ildə ekranlaşdırılıb və maraqla qarşılanıb. Sənətə təmənnasız xidmət və məhəbbət haqqında poetik etiraf olan film qocaman teatr aktyoru haqqındadır. Kəbirlinski (Həsənağa Turabov) epizod aktyorudur. İstedadı olmasa da, teatra qəlbən bağlıdır. Həmkarları daim onunla zarafatlaşır, lağa qoyurlar. Nəhayət, aydın olur ki, bu sakit, sadəlövh və gülməli adam əsl ziyalıdır, şəxsiyyətdir və milli mədəniyyət tarixinin bir parçasıdır. Yeri gəlmişkən, yazıçı Anarla rejissor Gülbənizin yaradıcılıq tandemi "Şəhərin yay günləri" pyesinin motivləri əsasında çəkilmiş "İmtahan" filmində də davam edib. Bu filmdə Şahmar Ələkbərov da onlara qoşulub. "İmtahan" əxlaqi əhəmiyyətinə görə G.Əzimzadə yaradıcılığından qırmızı xətlə keçir.

1974–1998-ci illərdə "Azərbaycanfilm" kinostudiyasında quruluşçu-rejissor işləyən Gülbəniz xanımın filmləri bir sıra kinofestivallarda mükafatlara layiq görülüb. Kiyevdə "Molodost-80" sınağında aldığı diplom, İrəvanda IX Televiziya Filmləri Festivalında qazandığı baş mükafat, Daşkənd festivalında əldə etdiyi fəxri fərman bu sıradandır.

Qarabağ müharibəsi də Gülbəniz Əzimzadə yaradıcılığından yan keçməyib. Orxan Fikrətoğlu, Rövşən Almuradlı, Elman Şeydayev və Rafiq Quliyevlə birgə ekranlaşdırılan "Ümid" filmində adı bəlli olmayan adi bir əsgərin qəhrəmanlıq rəmzinə çevrilməsi əsas süjet xəttini təşkil edir. Filmdə o adamlardan bəhs olunur ki, müharibə onların taleyini şikəst edib. Filmdəki hadisələr cəbhə xəttində deyil, Bakıdakı hospitalda bir gün ərzində baş verir. Müəlliflər Ana (Şükufə Yusupova) obrazının konteksində mənəvi problemlərə toxunurlar. Filmin adından da göründüyü kimi, xalqda başının üstünü almış bəlalardan qurtarmaq üçün özündə qüvvə tapmaq, hər cür çətinlikləri dəf etmək hissi aşılanır.

Azərbaycan kinosunda qadın rejissor kimi özünü təsdiqləmiş Gülbəniz Əzimzadə 18 ildir ki, aramızda yoxdur. Amansız əcəl onu 59 yaşında aparıb. Amma yaratdığı filmlər, yaradıcılıq səyləri haqqında xatirələr onu yaddaşlarda yaşadır.

***Ceyhun MİRZƏLİ***

Xalq qəzeti .- 2024.- 13 mart, № 56.- S.10.